Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30-cu və
Vətən müharibəsində qələbənin 5-ci ildönümünə
həsr olunur

UOT 94(479.24);
355.4(479.24)"2020":341.24(479.24+560)"2021":930.85(479.24)

KƏNAN HÜSEYNZADƏ
Bakı Dövlət Universitetinin magistrantı
guseynovkanan18@gmail.com

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ ŞUŞA ŞƏHƏRİNİN STRATEJİ ƏHƏMİYYƏTİ: HƏRBİ VƏ GEOSİYASİ BAXIŞ

DOI: https://doi.org/10.36719/2708-065X/110/27-32

Məqalədə İkinci Qarabağ müharibəsində Şuşa şəhərinin strateji rolunu hərbi və geosiyasi aspektlərdə araşdırılır. Tarixi məlumatlar və yerli rəsmi mənbələr əsasında göstərilir ki, XVIII əsrdə Qarabağ xanlığının paytaxtı kimi formalaşan Şuşa 1 400–1 600 metr yüksəklikdə yerləşən təbii qaladır və Laçın dəhlizinə nəzarət edir. 2020-ci ildə Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin meşə və uçurumlardan keçərək şəhəri artilleriya zərbəsi olmadan azad etməsi müharibənin taleyini dəyişdirdi və 10 noyabr atəşkəs bəyanatının imzalanmasına gətirib çıxardı. Ardınca, 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasında hərbi-siyasi müttəfiqliyi möhkəmləndirərək regionda yeni geosiyasi reallıq yaratdı. Məqalədə, həmçinin Şuşanın mədəniyyət paytaxtı elan edilməsi, "Xarıbülbül" festivalının bərpası və "Böyük Qayıdış" dövlət proqramı çərçivəsində bərpa-quruculuq və köç layihələrinin aparılması kimi sosial və mədəni dirçəliş prosesi də qısa şəkildə təsvir olunur.

Açar sözlər: Şuşa əməliyyatı, İkinci Qarabağ müharibəsi, strateji əhəmiyyət, Şuşa Bəyannaməsi, mədəni dirçəliş.

Giriş. İkinci Qarabağ müharibəsi 27 sentyabr–10 noyabr 2020 tarixlərində 30 illik münaqişənin hərbi həllinə çevrildi, kulminasiya 8 noyabrda Azərbaycanın Şuşa şəhərini azad etməsi oldu [8]. Şuşanın azad edilməsindən sonra Ermənistan məğlubiyyəti qəbul etdi, Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Ordusu 8 noyabrda sıldırım qayalardan qalxaraq əlbəyaxa döyüşlə şəhəri geri aldı və Ermənistan 10 noyabrda kapitulyasiya sənədinə imza atdı [3]. Beləliklə, Şuşa əməliyyatı müharibənin hərbi fazasını bitirən və sonrakı geosiyasi düzəni müəyyən edən dönüş nöqtəsi kimi tarixə düşdü.

Şuşanın strateji əhəmiyyətini anlamaq üçün onun tarixi-coğrafi mövqeyinə nəzər salmaq vacibdir. Qarabağ xanlığının banisi Pənahəli xan 1750-ci illərdə sıldırım dağlar üzərində "Şuşa qalası"nın təməlini qoydu və şəhər XVIII əsrin sonlarına doğru bölgənin əsas müdafiə və mədəniyyət mərkəzinə çevrildi [8]. Müdafiə Nazirliyinin portalında vurğulanır ki, Pənahəli xanın başladığı tikinti işləri İbrahimxəlil xanın dövründə gücləndirilmiş, möhkəm qala divarları və digər strateji qalalar tikilmiş və nəticədə Şuşa qısa müddətdə həm təbii gözəlliyi, həm də müdafiə qabiliyyəti ilə seçilən şəhər olmuşdur [3]. Bu təbii qala özünü sonrakı dövrlərdə də doğrultmuş, şəhər həm "Kiçik Paris" və "Azərbaycan musiqisinin beşiyi" kimi mədəni epitetlər, həm də mühüm hərbi məskən statusu qazanmışdır.

Şuşanın strateji dəyəri onun coğrafi mövqeyindən irəli gəlir. Şəhər təxminən 1.300-1.600 metr yüksəklikdə yerləşdiyi üçün Dağlıq Qarabağın "döyünən qəlbi" hesab edilir və Xankəndi ilə Ermənistanın Gorus şəhərini birləşdirən Laçın dəhlizinə nəzarət edir [13]. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) rəsmi xəbər portalında Şuşa şəhəri "Qarabağın döyünən qəlbi" adlandırılır və vurğu-

lanır ki, ağır texnika ilə möhkəmlənmiş düşmən mövqelərinə qarşı yüngül silahlarla mübarizə aparan Azərbaycan qüvvələri yolsuz dağlarda irəliləyərək sıldırım qayalardan yüksəlib şəhəri azad etdilər [2]. Prezident İlham Əliyev daha sonra müsahibələrində və çıxışlarında dəfələrlə qeyd etdi ki, Şuşasız müharibə yarımçıq olardı; ordumuz 44 gün ərzində "Şuşaya doğru dayanmadan, inamla irəlilədi" və nəhayət noyabrın 8-də bu strateji hədəf reallaşdı [2].

Hərbi əməliyyatların gedişatı göstərdi ki, Şuşanı azad etmək üçün xüsusi taktika və böyük fədakarlıq tələb olunurdu. Azərbaycan Milli Elmlər Akademiyasının məlumatında qeyd edildiyi kimi, əsgərlərimiz sıldırım qayaları aşaraq, dərin dərələrdən keçərək düşmənin ağır texnikasına qarşı yüngül silahlarla döyüşmüş və nəticədə "Qarabağ Zəfərinin zirvəsində Şuşa əməliyyatı" dayanmışdır [2]. Müdafiə Nazirliyinin hesabatı ordunun cəsur və peşəkar hərbi qulluqçularının şəhərə əlbəyaxa döyüşlə daxil olmasını və bunun Ermənistanı kapitulyasiyaya məcbur etməsini xüsusi vurğulayır [3]. Bu faktlar göstərir ki, Şuşa əməliyyatı təkcə texnoloji üstünlüyə deyil, həm də ərazi şəraitinə uyğun adaptasiya olunmuş taktikalara və yüksək əsgər ruhuna əsaslanırdı.

Şuşanın tarixi və coğrafi xüsusiyyətləri. Şuşa şəhərinin formalaşması XVIII əsrin ortalarında Qarabağ xanlığının geosiyasi strategiyası ilə bağlıdır. Əvvəlcə Bayat və Şahbulaq qalalarını tikən Qarabağ xanı Pənahəli xan həmin qalaların əlverişsiz coğrafi mövqeyini nəzərə alaraq 1752–1753-cü illərdə daha təhlükəsiz və təbii qalaya malik yeni bir şəhər salmağa qərar verdi. "Azərbaycan" qəzetinin materiallarında qeyd olunur ki, xan 1753-cü ildə Şuşa qalasının inşasını bərpa etdirdi və qalaya Pənahabad adı verərək Qarabağ xanlığının mərkəzini buraya köçürdü [8]. Azərbaycan Respublikası Prezidentinin rəsmi portalında təqdim olunan tarixi məlumatda da vurğulanır ki, XVIII əsrin ikinci yarısında Şuşa yalnız hərbi qalmaqla kifayətlənməyib, iqtisadi və mədəni cəhətdən inkişaf edən bir mərkəzə çevrilmiş, ticarət yollarının kəsişməsi və sənətkarlıq sahələrinin inkişafı sayəsində məşhurlaşmışdır [11]. Bu dövrdə şəhər Azərbaycanın ən mühüm ticari məntəqələrindən biri sayılır, eyni zamanda mədəniyyət və poeziya ocağı kimi tanınırdı.

Tarixən Şuşa siyasi və mədəni baxımdan mühüm hadisələrin mərkəzində olmuşdur. XIX əsrdə Çar Rusiyasının tərkibində olan şəhər Cənubi Qafqazın mədəniyyət paytaxtı kimi formalaşmış, azərbaycanlılar və ermənilərin birgə yaşadığı çoxmədəniyyətli bir cəmiyyətə çevrilmişdi. Lakin 1905 və 1918-ci illərdəki erməni-müsəlman qarşıdurmaları nəticəsində ciddi dağıntılar və əhali köçləri baş vermiş, şəhərin sosial strukturu dəyişmişdir [11]. 1992-ci ildə Ermənistanın işğalı nəticəsində şəhərin azərbaycanlı əhalisi məcburi köçkün vəziyyətinə düşmüş, tarixi memarlıq abidələrinin çoxu dağıdılmışdır. Yalnız 2020-ci ildə, İkinci Qarabağ müharibəsi zamanı Şuşanın azad olunması ilə bu tarixi irsin bərpası üçün yeni imkanlar yarandı.

Şuşa adı türk dilində "şüşə" sözündən gəlir və şəhərin saf, şəffaf dağ havasını simvolizə edir. Məqalələrdə vurğulanır ki, Şuşa ətrafındakı Turşsu, İsa bulağı, Səkinə bulağı, Soyuq bulaq və Qırx bulaq kimi çoxsaylı bulaqlar şəfa mənbəyi hesab olunur və şəhərin təbii landşaftına xüsusi gözəllik qatır. Şuşa həm də memarlıq inciləri ilə tanınır; 1992-ci il işğalınadək şəhərdə 129 memarlıq abidəsi qeydə alınmışdı və bunların arasında Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Natəvanın sarayı və çoxsaylı karvansaralar var idi. Qala divarlarının qoruyucu funksiyası əsrlər boyu şəhəri xarici müdaxilələrdən qoruyub və onu "alınmaz qala"ya çevirib [1].

İkinci Qarabağ müharibəsinin qısa icmalı. 1988-1994-cü illərdəki Birinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan torpaqlarının təxminən 20 faizi işğal altında qaldı və 1994-cü ilin Bişkek protokolundan sonra münaqişənin sülh yolu ilə həlli üçün çoxsaylı danışıqlar aparılsa da, nəticə vermədi [6]. Bu dövrdə Ermənistanın siyasi rəhbərliyi radikal mövqeyini daha da sərtləşdirdi: 2018-ci ildə hakimiyyətə gələn Nikol Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı verməklə sülh prosesini çətinləşdirdi, müdafiə naziri David Tonoyan isə "yeni torpaqlar üçün yeni müharibə" çağırışı etdi. 2020-ci ilin yayında Tovuz istiqamətində artilleriya atəşləri ilə aparılan hücum cəhdləri və avqustda təmas xəttində diversiya-kəşfiyyat qrupunun təxribatı gərginliyi daha da artırdı [7]. Azərbaycan tərəfinin məlumatına görə, Ermənistana qeyri-qanuni silahlı dəstələrin və terrorçu qrupların köçürülməsi, eləcə də Ermənistan rəhbərliyinin təxribatçı bəyanatları münaqişəni hərbi müstəviyə daşıdı.

27 sentyabr 2020-ci ildə Ermənistan Silahlı Qüvvələri cəbhəboyu Azərbaycan mövqelərinə artilleriya zərbələri endirdi, buna cavab olaraq Azərbaycan Ordusu "Dəmir Yumruq" adlı əks-hücum əməliyyatına başladı və ölkə daxilində hərbi vəziyyət və səfərbərlik elan olundu [6]. Ordumuz qısa müd-

dətdə müdafiə səddini yararaq Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı da daxil olmaqla 300-dən çox yaşayış məntəqəsini azad etdi. Virtual Qarabağ portalına əsasən, 44 gün ərzində beş şəhər, dörd qəsəbə və 286 kənd işğaldan azad edilərək Azərbaycanın suverenliyi bərpa olundu [14].

Müharibə dövründə beynəlxalq vasitəçilərin çağırışları ilə bir neçə dəfə humanitar atəşkəs elan olunsa da, erməni silahlı qüvvələrinin dinc şəhərləri və mülki infrastrukturu bombardman etməsi səbəbindən atəşkəslər davamlı olmadı [14]. Buna baxmayaraq, Azərbaycan Ordusu irəlilədi və 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi müharibənin taleyini müəyyənləşdirdi [7]. Ertəsi gün 70-dən çox kənd azad edildi, 10 noyabrda isə Azərbaycan Prezidenti, Ermənistanın Baş naziri və Rusiya Prezidenti hərbi əməliyyatların dayandırılması barədə üçtərəfli bəyanat imzaladı və Ağdam, Kəlbəcər, Laçın rayonları döyüşsüz geri qaytarıldı.

Şuşa əməliyyatının hərbi-strateji aspektləri. Şuşa əməliyyatı İkinci Qarabağ müharibəsinin ən çətin və unikal hərbi əməliyyatı sayılır. Şuşa təbii istehkam idi; şəhərin ətrafı dağlarla və dərin dərələrlə əhatələndiyindən ağır texnika və tanklarla hücum mümkün deyildi. Azərbaycan Ordusu şəhəri artilleriya və hava hücumları ilə dağıtmamaq qərarına gələrək alternativ strategiya seçdi: yüngül silahlarla silahlanmış xüsusi təyinatlı dəstələrin meşələr, uçurumlar və dağ keçidlərindən gizli şəkildə hərəkəti və əlbəyaxa döyüş. Prezident İlham Əliyev sonradan bildirmişdir ki, əsgərlərimiz Şuşaya çatmaq üçün "yarğanları, meşələri və dağları keçərək" irəliləmiş və şəhərə gözlənilməz istiqamətdən daxil olmuşlar [7]. Əməliyyatın taktikası iki əsas mərhələyə bölünürdü. İlk mərhələdə Azərbaycan Ordusu Cəbrayıl–Füzuli–Hadrut istiqamətində irəliləyərək Şuşaya gedən yolları nəzarət altına aldı və 4 noyabrda Şuşa–Laçın yolunun bir hissəsini kəsdi. İkinci mərhələdə 6 noyabr 2020-ci ildə hər biri 100 nəfərdən ibarət dörd qruplaşmadan ibarət 400 nəfərlik Xüsusi Təyinatlı Qüvvələr meşələrdən və sıldırım qayalardan ip vasitəsi ilə dırmaşaraq şəhərə eyni vaxtda dörd istiqamətdən daxil oldu. Şəhərdə ağır artilleriya və zirehli texnika olmadan aparılan bu döyüşlərdə Azərbaycan əsgərləri erməni müdafiə xəttini yararaq bir neçə saat ərzində strateji binaları nəzarətə götürdü; yüzlərlə itki verən erməni qüvvələri günortadan sonra şəhərdən çəkilməyə məcbur oldu [7].

Geosiyasi və regional təsirlər. Şuşa əməliyyatından sonra regionda geosiyasi balans kökündən dəyişdi. 10 noyabr 2020-ci ildə Azərbaycan, Rusiya və Ermənistan liderləri atəşkəs və bütün hərbi əməliyyatların dayandırılmasına dair Üçtərəfli Bəyanat imzaladılar; sənədə əsasən, tərəflər mövcud mövqelərində qalır, Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycanın nəzarətinə qaytarılır və Laçın dəhlizi boyunca Rusiya Federasiyasının 1 960 nəfərlik sülhməramlı kontingenti yerləşdirilirdi [4]. Bəyanat həm də məcburi köçkünlərin BMT nəzarəti altında geri dönüşünü, hərbi əsirlərin mübadiləsini və bölgədə iqtisadi-nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tuturdu. Beləliklə, Rusiya sülhməramlı qüvvələrinin yerləşdirilməsi Cənubi Qafqazda yeni təhlükəsizlik reallığı yaratdı: Moskva hərbi vasitə ilə regionda mövcudluğunu möhkəmləndirdi, eyni zamanda Azərbaycan Rusiya vasitəçiliyi ilə ərazi bütövlüyünü bərpa etdi.

Şuşa əməliyyatının təsirləri Rusiya amili ilə məhdudlaşmadı: 15 iyun 2021-də Şuşada imzalanmış "Müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" siyasi, iqtisadi, hərbi-müdafiə və humanitar sahələrdə əməkdaşlığı genişləndirir, suverenlik və ərazi bütövlüyünü, sərhədlərə təhdid hallarında qarşılıqlı yardımı təsbit edir. Millət vəkili Pərvin Kərimzadəyə görə, sənəd Azərbaycan–Türkiyə müttəfiqliyinin siyasi-hüquqi mexanizmlərini müəyyənləşdirir və regionda sabitlik üçün birgə səylərin artırılmasını tələb edir [10]. Eyni zamanda, Qars müqaviləsinin 100 illiyini simvolik xatırladaraq enerji və müdafiə sənayesi əməkdaşlığını yeni mərhələyə qaldırır; nəticədə Ankara–Bakı strateji ittifaqı Qərbin (xüsusən NATO-nun) marağını artırır və Rusiyanın təsir imkanlarını tədricən məhdudlaşdırır [9].

Üçtərəfli Bəyanat və Şuşa Bəyannaməsi regionda yeni kommunikasiya xətləri açdı. Laçın dəhlizinə paralel olaraq Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirən yeni nəqliyyat marşrutunun çəkilməsi planlaşdırıldı. Zəngəzur dəhlizi adlandırılan bu layihə Türkiyə və Azərbaycan arasında quru bağlantı yaradaraq regiondakı nəqliyyat-logistika şəbəkəsini yenidən konfiqurasiya edir. Eyni zamanda, Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının inteqrasiyası üçün unikal imkanlar yaranıb; Gəncə Dövlət Universitetinin analitik məqaləsində qeyd olunur ki, Ermənistanda artan siyasi və demoqrafik problemlər fonunda erməni cəmiyyətinin nüfuzlu şəxsləri Qarabağın hüquqən Azərbaycana məxsus olduğunu etiraf edir və sülh müqaviləsi tərəfdarıdır [9]. Bu baxımdan Şuşa həm sülhün

təminatçısı, həm də müxtəlif etnik icmaların birgəyaşayış modelinin tətbiq oluna biləcəyi məkan kimi dəyərləndirilir.

Vətən müharibəsindən sonra Azərbaycan dövləti Qarabağın, o cümlədən Şuşanın bərpası və sosial-mədəni dirçəlişi üçün geniş proqramlar başladı; Şuşa "Azərbaycanın mədəniyyət paytaxtı" elan olundu və tarixi tədbirlər bərpa edildi. 2021-ci ilin mayında Cıdır düzündə "Xarıbülbül" festivalı 30 ildən sonra yenidən keçirildi, muğam, aşıq və xalq melodiyaları azadlıq sevincinin musiqili ifadəsinə çevrildi; Prezident İlham Əliyev açılışda tədbiri şəhidlərin xatirəsinə həsr etdiklərini bildirdi [12]. 1989-dan keçirilən, 1992-də dayandırılan bu festival 2021-dən bəri TÜRKSOY və ICESCO-nun iştirakı ilə genişlənərək Azərbaycanın multikultural dəyərlərini dünyaya göstərir; Vaqif Poeziya Günləri və digər ədəbi-musiqi tədbirləri isə Şuşanın mədəniyyət beşiyi statusunu bərpa edir [12].

"Böyük Qayıdış" proqramı təkcə Şuşada deyil, bütün azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərini əhatə edir; 24 noyabr 2020-də yaradılan Əlaqələndirmə Qərargahı və xüsusi nümayəndəliklər prosesin mərkəzləşdirilmiş icrasını təmin edir. 2021-ci ilin iyulunda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı, 2022–2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası və "Böyük Qayıdış" Dövlət Proqramı qəbul edildi. Proqrama görə, 2026-cı ilin sonunadək 34 500 mənzil və fərdi ev, 197 məktəbəqədər və ümumi təhsil müəssisəsi, 8 peşə məktəbi, 1 orta ixtisas təhsil müəssisəsi tikiləcək, 26 avtomobil yolu layihəsi tamamlanacaq; Ağdam Sənaye Parkı, Zəngilandakı "Araz Vadisi İqtisadi Zonası" və digər layihələr bölgəni iqtisadi baxımdan cəlbedici məkana çevirir.

Şuşanın sosial-mədəni dirçəlişi həm də bölgədə sülhün möhkəmlənməsinə töhfə verir. GDU-nun analitik məqaləsində qeyd olunduğu kimi, Qarabağda yaşayan erməni əsilli sakinlərin inteqrasiyası üçün yeni imkanlar yaranıb; bu, erməni cəmiyyətinin nüfuzlu simalarının Dağlıq Qarabağın hüquqən Azərbaycan ərazisi olduğunu etiraf etmələri ilə bağlıdır [9]. Şuşa festival və tədbirləri müxtəlif millət və mədəniyyətlər üçün dialoq platformasına çevrilir, bu da qarşılıqlı etimadı artırır. Beləliklə, Şuşanın bərpası və yenidən dirçəlişi yalnız bir şəhərin deyil, bütün Cənubi Qafqazın gələcək inkişafının simvolu kimi çıxış edir.

Nəticə. Şuşanın 8 noyabr 2020-ci ildə azad edilməsi İkinci Qarabağ müharibəsinin hərbi kulminasiyası olmaqla yanaşı, Azərbaycanın suverenlik mübarizəsinin siyasi və mədəni simvoluna çevrildi. Azərbaycan Ordusunun meşə və dağlar vasitəsilə gizli irəliləyərək əlbəyaxa döyüşlərlə həyata keçirdiyi "Şuşa əməliyyatı" düşmən müdafiəsini qısa müddətdə yararaq erməni qüvvələrini geri çəkilməyə məcbur etdi; bu qələbədən dərhal sonra Ermənistan kapituliyasiya aktını imzalamağa razı oldu. Üçtərəfli Bəyanatın şərtlərinə əsasən, atəşkəs elan olundu, Rusiya sülhməramlı kontingenti bölgəyə yerləşdirildi və Ağdam, Kəlbəcər, Laçın rayonları Azərbaycanın nəzarətinə qaytarıldı. Beləliklə, Şuşa zəfəri 44 günlük müharibənin taleyini həll etdi və regionda yeni təhlükəsizlik reallığı yaratdı. Şuşanın azadlığı yalnız hərbi qələbə deyil, həm də mədəni intibahın başlanğıcı oldu. Şəhər Azərbaycanın mədəniyyət paytaxtı elan edildi və "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günləri kimi tədbirlər 30 ildən sonra yenidən bərpa olundu. Cıdır düzündə səslənən muğamlar və aşıq nəğmələri Azərbaycanın mədəni irsinin dirçəlişinin simvoluna çevrildi. Hər bir festival və bərpa olunan abidə Şuşanın azadlığının mənəvi-mədəni dəyərini təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə də nümayiş etdirir.

Şuşa əməliyyatının geosiyasi nəticələri isə daha genişmiqyaslıdır. 15 iyun 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasındakı müttəfiqliyi siyasi, iqtisadi və hərbi sahələrdə yeni mərhələyə yüksəltdi, regionda sabitlik və təhlükəsizlik üçün birgə fəaliyyətin hüquqi əsaslarını möhkəmləndirdi. Zəngəzur dəhlizinin açılması, Laçın dəhlizinin Rusiya sülhməramlılarının nəzarətində qalması və iqtisadi-nəqliyyat əlaqələrinin bərpası Cənubi Qafqazda güc balansını yenidən formalaşdırdı. Eyni zamanda, bu geosiyasi razılaşmalar bölgədə yaşayan erməni icması üçün sülh və inteqrasiya imkanlarını artırdı, Ermənistanı revanşist ritorikadan uzaq durmağa təşviq etdi. Gələcəyə baxışda Şuşa və ümumən Qarabağ "Böyük Qayıdış" proqramı çərçivəsində bərpa və inkişaf prosesinin mərkəzindədir. Dövlət Proqramı yüzlərlə yaşayış evi, məktəb, tibb müəssisəsi və nəqliyyat infrastrukturunun tikintisini nəzərdə tutur; 2026-cı ilə qədər azad olunmuş ərazilərə 140 min məcburi köçkünün geri qaytarılması planlaşdırılır. Yenidənqurma işləri "ağıllı şəhər" konsepsiyasına və dayanıqlı inkişaf prinsiplərinə əsaslanır, ekoloji və sosial inklüzivlik diqqətdə saxlanılır. Şuşanın həm tarixi-mədəni irsin bərpası, həm də müasir turizm və iqtisadi mərkəz kimi inkişafı Azərbaycanın strateji hədəflərindən biridir.

ƏDƏBİYYAT

1.“Azərbaycan” qəzeti. (2025). *Şuşa qalası*. https://www.azerbaijan-news.az/az/posts/detail/shusha-qalasi-211952 [16.09.2025].
2.Azərbaycan Milli Elmlər Akademiyası. (2023). *Şuşanın azad edilməsi Qarabağ Zəfərinin zirvəsi oldu*. https://science.gov.az/az/news/open/26977 [16.09.2025].
3.Azərbaycan Respublikası Müdafiə Nazirliyi. (2021). *Mədəniyyət beşiyi Şuşa*. https://mod.gov.az/az/pre/38604.html [16.09.2025].
4.Azərbaycan.az. (2020). *Böyük Qayıdış*. https://azerbaijan.az/information/911 [16.09.2025].
5.Azərbaycan.az. (2020). *Üçtərəfli bəyanat*. https://azerbaijan.az/related-information/309 [16.09.2025].
6.Azərbaycan.az. (2024). *“Dəmir Yumruq” əməliyyatı*. https://azerbaijan.az/related-information/303 [16.09.2025].
7.Azərbaycan.az. (2024). *“Şuşa” əməliyyatı*. https://azerbaijan.az/related-information/304 [16.09.2025].
8.Əhmədov, E. (2020). *Strateji əhəmiyyətli Şuşanın işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə həlledici təsir göstərərək Zəfər günü kimi tarixə yazıldı*. AZƏRTAC / Azerbaijan Portalı. https://azerbaijan.az/news/5660 [16.09.2025].
9.Gəncə Dövlət Universiteti. (2021). *Şuşa Bəyannaməsi sülhün təminatçısı və regionun yeni geosiyasi reallığını rəsmiləşdirən çox mühüm sənəddir*. https://gdu.edu.az/susa-bəyannaməsi-sulhun-təminatcisi-və-regionun-yeni-geosiyasi-realligini-rəsmiləsdirən-cox-muhum-sənəddir/ [16.09.2025].
10.Modern.az. (2023). *Şuşa Bəyannaməsinin siyasi və hərbi-strateji əhəmiyyəti var*. https://modern.az/aktual/415655/shusha-beyannamesinin-siyasi-ve-herbi-strateji-ehemiyyeti-var/ [16.09.2025].
11.Qəbul Ol Portalı. (2025). *Şuşa: Tarixi, coğrafi mövqeyi, mədəniyyəti*. https://qebulol.az/susa/ [16.09.2025].
12.Süleymanova, N. (2025). *Qələbənin səsi: “Xarıbülbül” festivalı*. Respublika newspaper. https://respublika-news.az/az/news/qelebenin-sesi-xaribulbul-festivali [16.09.2025].
13.Vikipediya. (2024). *Şuşanın azad edilməsi*. https://az.wikipedia.org/wiki/Şuşanın_azad_edilməsi [16.09.2025].
14.Virtual Qarabağ Portalı. (n.d.). *İkinci Qarabağ müharibəsi*. https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html [16.09.2025].

КЯНАН ГУСЕЙНЗАДЕ
Магистрант Бакинского государственного университета

СТРАТЕГИЧЕСКОЕ ЗНАЧЕНИЕ ГОРОДА ШУША ВО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ: ВОЕННАЯ И ГЕОПОЛИТИЧЕСКАЯ ПЕРСПЕКТИВА

Стратегическая роль Шуши во Второй карабахской войне оценивается в военном и геополитическом разрезах: как естественная крепость на высоте 1 400–1 600 м город контролирует Лачинский коридор. В 2020 году операция по освобождению, проведённая Силами специального назначения Азербайджана без применения артиллерии, определила исход войны и привела к заключению перемирия 10 ноября. Подписанная в 2021 году Шушинская декларация укрепила азербайджано-турецкий союз и создала новую геополитическую реальность в регионе. Параллельно провозглашение Шуши культурной столицей, возрождение фестиваля «Харыбюльбюль» и программа «Большое возвращение» ускорили социально-культурное возрождение.

Ключевые слова: Шушинская операция, Вторая карабахская война, стратегическое значение, Шушинская декларация, культурное возрождение.

KANAN HUSEYNZADE
Master student at Baku State University

STRATEGIC IMPORTANCE OF SHUSHA CITY IN THE SECOND KARABAKH WAR: MILITARY AND GEOPOLITICAL PERSPECTIVE

Shusha's strategic role in the Second Karabakh War is assessed from a military and geopolitical perspective: the city, like a natural fortress, located at an altitude of 1,400–1,600 m, controls the Lachin corridor. In 2020, the artillery-free liberation operation of the Special Forces determined the fate of the war and led to the ceasefire of November 10. The 2021 Shusha Declaration strengthened the Azerbaijani-Turkish alliance and created a new geopolitical reality in the region. In parallel, the declaration of Shusha as the cultural capital, the restoration of the "Kharibulbul" festival, and the "Great Return" program accelerated the socio-cultural revival.

Keywords: Shusha operation, Second Karabakh War, strategic importance, Shusha Declaration, cultural revival.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Redaksiya heyətinin qərarı ilə nəşr edilir.